# Milli birlik və siyasi həmrəylik

**Zəfər fərəhi...**

Azərbaycan uzun illər erməni terrorunun zərbəsindən əziyyət çəkib. Belə ki, XX əsrin 90-cı illərində erməni separatçıları yurdumuzun ərazi bütövlüyünə təcavüz etməklə torpaqlarımızın 20 faizini işğal etmiş, minlərlə insan yurd yuvalarından didərgin düşmüşdü. Uzun illər Azərbaycan prezidenti torpaqlarımızın azad edilməsi üçün danışıqlar aparsa da, həmsədr dövlətlərin ermənipərəst mövqeyi ədalətin bərpa olunmasına yol vermirdi. BMT-nin kağız üzərində qalan 4 qətnaməsinə belə erməni daşnaqları əhəmiyyət vermir, hətta sərhəd bölgələrimizdə yeni işğalçılıq planları həyata keçirməkdə, günahsız insanları qətlə yetirməkdə davam edirdilər. Azərbaycan tərəfi olaraq biz-Azərbaycan xalqı, dövlətimizin başçısı İlham Əliyev, ordumuz müharibə etmək istəmir, sülh yolu ilə ədalətin bərpasını arzu edirdik. Lakin zaman öz sözünü dedi. Daha doğrusu, torpaqlarımızın azad edilməsi üçün elə bir şərait yarandı ki, düşmənin növbəti dəfə, həm də müxtəlif istiqamətlərdən silahlı hücumlarına Azərbaycan Ordusu adekvat cavab verdi və ilk gündəcə düşməni susdurdu. 44 günlük vətən müharibəsində böyük şücaətlər göstərən Azərbaycan ordusunun əsgər və zabitləri, bir də xalqımızın birliyi Azərbaycanın böyük qələbəsini reallaşdırdı. İllər sonra Azərbaycan torpağı, qəhrəman xalqımız zəfərin fərəhini yaşadı. Vətən müharibəsi insanların illər boyu verdiş etdikləri həyat fəlsəfəsini dəyişdi, yeni bir təfəkkür hadisəsini - qalibiyyət fəlsəfəsini doğurdu, ordu və bayraq sevgisini həmişəlik könüllərə və zehinlərə yerləşdirdi, hər kəsə yeni həyat gücü və enerjisi bəxş etdi. İndi elə bir vətəndaşımız tapılmaz ki, ən qısa zamanda mənfur düşməndən azad edilən müqəddəs torpaqlarımızı ziyarət etmək arzusunda olmasın.




Bu gün vətəndaşlarımızda sonsuz bir torpaq sevgisi var. Vətən müharibəsi həmvətənlərimizin qəlbinin, ruhunun dərinliklərində öz oyanış vaxtını gözləyən enerjiyə yol açdı, adi həyatda fərqinə varmadığımız, lakin vətən torpaqları uğrunda ölüm-dirim mübarizəsi anında baş qaldıran mübarizlik və qəhrəmanlıq xüsusiyyətləri hər kəsə sirayət etdi. Fərdi qəhrəmanlıq qrup və kollektiv qəhrəmanlığı doğurdu, qısa zamanda bu bütün xalqın qəhrəmanlığına yol açdı.

**Birlikdə güclüyük...**

Müharibənin ilk günündən Ali Baş Komandanın tam qələbəyə inamlı çağırışı, zəfər ümidli müraciətləri bütün xalqımızı qəhrəmana çevirirdi. Tarix boyu həmişə belə olub ki, sərkərdəsi güclü olan ordu qalib olub, eynilə biz bu tarixi canlı olaraq yaşadıq. Xalq və ordu birliyi bütün dünya xalqlarına bir nümunə oldu. Genetik kodlarımızda oturduğuna görə bu çağırışlar babalarımızın döyüş ruhunu və vərdişlərini dirçəltməyimizə və döyüş meydanında təsdiq etməyimizə gətirib çıxardı. İndi biz də alnıaçıq surətdə qəhrəman xalqların sırasındayıq. Millətimizin içərisindəki "lovğa mənləri" tarixə gömərək "Biz birlikdə güclüyük" deməyə və bu gücü ortaya qoymağa nail olduq.

Ulu öndər Heydər Əliyev deyirdi: "Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır". Əlbəttə, bu, öz-özünə baş verən proses deyil, bu, yalnız ardıcıl milli siyasət yürüdülməsi, məqsədyönlü dövlət strategiyasının həyata keçirilməsi sayəsində, tədricən formalaşan zamanın tələb etdiyi həyati dönüş anında isə yatmış vulkan kimi püskürən bir prosesdir. Bu, milli ruhun və dirənişin üsyan anıdır, özünütəsdiq nöqtəsidir.

Müharibə iki istiqamətdə - cəbhədə və masada gedirdi. Müzəffər Ordunun igid, qorxmaz əsgərləri düşmən ordusunu darmadağın edərkən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev informasiya siyasətinin də başına keçərək Azərbaycanın haqq səsini, ədalət savaşını dünya mediasına çatdırırdı. Bəzən kinayə ilə suallar verərək Ermənistanı dəstəkləyən bəzi xarici müxbirlərə əsaslı və tarixə söykənən cavablar verərək həqiqəti çatdırmış, onları əsl lider kimi susdurmağı bacarmışdır. Diplomatik sahədə və informasiya müharibəsində qazandığımız uğur Qarabağın işğaldan azad edilməsi prosesində qələbəmiz üçün böyük əhəmiyyət kəsb etdi. Prezident İlham Əliyev sübut etdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır və Ordumuz çox çətin coğrafi relyefi olan torpaqlarımızı işğaldan azad edib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük qələbə müasir Azərbaycan dövlətinin hərbi qüdrətini təsdiqlədi, Azərbaycan bu qələbə ilə tarixi nailiyyətə imza atdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, ordumuzun misilsiz qəhrəmanlığı və cəsarəti, əsgərlərimizin canı, şəhidlərimizin qanı və xalqımızın birliyi hesabına qazandıq. 44 günlük qəhrəmanlıq savaşımız qürur mənbəyimiz olaraq tarixdə qalacaq, əsgər və şəhidlərimizin qəhrəmanlığı gələcək nəsillərə örnək və ibrət olacaqdır. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən vətən fədaisi şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyir, onların əziz ruhları qarşısında baş əyirik.

**Abil AĞASƏFOV,**
**Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri.**

# Düşmənin məğlubiyyət Aktı

Artıq Vətən müharibəsində zəfər qazanmağımızdan bir il ötür. 8 noyabr 2020-ci ildə Şuşanın işğaldan azad olunması ilə düşmənə sarsıdıcı zərbə vuruldu. Məhz bu zərbədən sonra noyabr ayının 10-da düşmən kapitulyasiya aktına imza atmağa məcbur qaldı və 44 günlük Vətən müharibəsi Azərbaycan Respublikasının, Azərbaycan ordusunun qələbəsi ilə başa çatdı.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı. Azərbaycan Ordusu qısa müddətli zəfər yürüşündə inanılmaz uğurlar əldə etdi.

44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan qurtardı. Bu müddət ərzində ümumilikdə, 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi.

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. Bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Kapitulyasiya aktı imzalandıqdan sonra da düşmən öz təxribatlarını törətməyə davam edir. Lakin bu təxribatların hər birinə Azərbaycan ordusu layiqincə cavab verir. Ali baş komandan, Prezident İlham Əliyevin də dediyi kimi, "Dəmir yumruq" hələ də qüvvədədir və düşmənin hər an başını əzməyə hazırdır.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**